# Alim-publisist Qafar Cəbiyevin “Düşüncələr”i




***Tanınmış arxeoloq və publisist, professor Qafar Cəbiyevin geniş oxucu dairəsinə yeni təqdim olunan “Düşüncələr” kitabını onun yeni uğuru adlandırmaq istəsəm də, bu fikrimdən daşındım. Əslində, Əməkdar jurnalist, siyasi elmlər doktoru Xalid Niyazovun redaktorluğu ilə “Elm və Təhsil” nəşriyyatında buraxılmış bu nəfis tərtibatlı kitabı Qafar müəllimin böyük uğurlarının təqdimatı adlandırmaq daha düzgün olardı.***

Altı bölümdən ibarət kitabda oxucu Qafar müəllimin arxeologiya elmi sahəsində əvəzsiz xidmətlərinin, tədqiqat və düşüncələrinin şahidi olmaqla yanaşı, müəllifin müstəqillik illərində ölkədə baş verən proseslərə ayıq münasibəti, ümummilli lider Heydər Əliyevin müstəqil dövlət quruculuğu yoluna sədaqəti, Azərbaycan tarixinin və arxeologiyasının ən aktual problemlərinin həllindəki rolu, eyni zamanda, onun müxtəlif dövri nəşrlərdə dərc olunmuş elmi-publisistik məqalələri ilə tanış olur. Müəllifin özünün yazıları ilə yanaşı, onun barəsindəki yazıların hər birində Qafar müəllimin dəyərli alim, Azərbaycan arxeologiyasının görkəmli siması, fədakar arxeoloq, istedadlı qələm sahibi, vətənpərvər bir ziyalı olduğunu görürük.

Qafar Cəbiyevin “Girdman tarixi (IV-IX əsrlər)” əsərinə akademik Yaqub Mahmudovun verdiyi dəyər: “Girdman tarixi real tarixdir, olmuş tarixdir, bizim tarixdir. Bu təkcə müəllifin deyil, ümumiyyətlə, tarix elmimizin böyük uğurudur. Onun Girdmanın IV-IX əsrlər tarixinə həsr olunmuş tədqiqatı elmimizdə yenilikdir, tarixi saxtalaşdıranlara, xüsusilə də, erməni saxtakarlarına tutarlı cavabdır” – qənaəti, əslində, hər alimin qazana bilmədiyi böyük qiymətdir. Belə nüfuzlu qiymətləndirmələri digər yazılarda da görürük.

Kitaba daxil edilmiş həmin materiallarda Azərbaycanın elm ictimaiyyətinin yaxşı tanıdığı akademik Teymur Bünyadov, akademik Nailə Vəlixanlı, tarix, arxeologiya və etnoqrafiya sahəsində xidmətləri olan alimlərdən Əsədulla Cəfərov, Vəfa Quliyeva, Nəcəf Müseyibli, Fariz Xəlilli Qafar müəllimin xidmətlərini yetərincə dəyərləndirir, onu “Azərbaycan arxeologiya elminin cəfakeş nümayəndəsi”, “fədakar arxeoloq”, “Azərbaycan arxeologiyasının görkəmli siması” adlandırır, elmi fəaliyyətini yüksək qiymətləndirirlər. AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun keçmiş direktoru, professor Maisə Rəhimova bildirir ki, “Azərbaycan tarix və arxeologiya elminin inkişafı istiqamətindəki bir sıra ilklər Qafar Cəbiyevə məxsusdur”.

Qafar Cəbiyevin elmi fəaliyyətindən danışanda bir faktı da mütləq xatırlatmaq yerinə düşər. Bu yaxınlarda Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası Xidməti, “Orta əsr Ağsu şəhəri” Dövlət Tarix–Mədəniyyət Qoruğu, Miras Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, Gürcüstan Qafqaz İrsi Araşdırma İnstitutu və İtaliya YOCOCU Assosiasiyasının birgə təşkilatçılığı ilə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, professor Qafar Cəbiyevin 70 illik yubileyinə həsr olunmuş “Azərbaycan arxeologiyasının inkişafında professor Qafar Cəbiyevin rolu” mövzusunda beynəlxalq vebinar – konfrans keçirmişdir. Türkiyə, İtaliya, Rusiya, Gürcüstan və Şimali Makedoniyadan çoxsaylı elm adamlarının qatıldığı və 2 gün davam edən beynəlxalq tədbirdə Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Mədəniyyət Nazirliyinin, Ağsu, Şamaxı, İsmayıllı rayonları icra hakimiyyəti nümayəndələri və türkiyəli qonaqlar çıxış etmiş, fədakar alimin həyat yolundan, onun arxeologiya elminə töhfələrindən danışmışlar.

Beynəlxalq konfransın proqramına diqqət edəndə belə Qafar müəllimin nə qədər zəngin yaradıcılıq irsinə malik olduğuna şahidlik etməli olursan: “Orta əsr Qəbələ şəhəri professor Qafar Cəbiyevin tədqiqatlarında”, “Görkəmli arxeoloq Qafar Cəbiyevin “Şəhərgah yaşayış yeri” və “Muradxan dəfinəsi”nin öyrənilməsində rolu”, “Azərbaycanın orta əsr arxeologiyasının inkişafında professor Qafar Cəbiyevin fəaliyyəti”, “Tədqiqatçı-alim Qafar Cəbiyevin AAK-dakı fəaliyyətinə dair”, “Azərbaycan arxeologiyasının tədqiqində Qafar Cəbiyevin rolu”, “Şirvan abidələrinin aşkarlanmasında arxeoloq Qafar Cəbiyevin rolu”, “Professor Qafar Cəbiyevin tələbəlik illərinə dair xatirələr” və sair məruzələrdə yubilyar-alimin bir insan ömrünə sığmayan çoxşaxəli və uğurlu fəaliyyəti, elmi-pedaqoji və həm də jurnalistika sahəsindəki xidmətləri göz önünə gəlir.

Yeri gəlmişkən qeyd edilməlidir ki, Qafar Cəbiyev uzun illər ölkənin aparıcı mətbuat orqanlarında da çalışmış, Azərbaycan milli mətbuatının inkişafına xüsusi töhfələr vermişdir. Alim-publisist Prezident İlham Əliyevin sərəncamları ilə 2003–2018-ci illərdə Milli Televiziya və Radio Şurasının üzvü, 2013-cü ildən şuranın sədr müavini olmuşdur. Əmək fəaliyyətinin ilk illərindən əsas peşəsi ilə yanaşı, jurnalist qələmini əlindən qoymayan Qafar müəllim kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə Əməkdar jurnalist fəxri adına layiq görülmüşdür.

“Düşüncələr” kitabında mətbuatımızın dəyərli simalarından olan professor Cahangir Məmmədlinin, siyasi elmlər doktoru, Əməkdar jurnalist Xalid Niyazovun, Əməkdar mədəniyyət işcisi Qüdrət Piriyevin, Milli Televiziya və Radio Şurasının şöbə müdiri Təvəkkül Dadaşovun, tanınmış jurnalist Asif Mərzilinin Qafar müəllimin milli mətbuatda fəaliyyətini layiqincə dəyərləndirən yazıları yer alıb.

Azərbaycan EA Tarix İnstitutunun Arxeologiya və Etnoqrafiya bölməsində uzun illər baş laborant, kiçik elmi işçi və nəhayət, baş elmi işçi kimi çalışan Qafar Cəbiyev Qəbələ, Bakı və Ağsu–İsmayıllı arxeoloji ekspedisiyalarının apardığı çöl tədqiqatı işlərində yaxından iştirak edib. Uzun müddət Ağsu–İsmayıllı ekspedisiyası rəisinin müavini, Qəbələ arxeoloji ekspedisiyasının IV dəstəsinin rəisi kimi fəaliyyət göstərib. O, Qəbələ, Bakı, İsmayıllı, Ağsu və Kürdəmir ərazisindəki arxeoloji abidələrin öyrənilməsində bilik və bacarığını əsirgəməyib.

Girdman tarixi mövzusunda doktorluq dissertasiyası müdafiə edən görkəmli alim “Arxeologiya və romantika”, “Azərbaycan keramikası”, “Can Azərbaycan”, “Bura Vətəndir”, “Muradxan dəfinəsi”, “Girdman: tarixi və tarixi coğrafiyası”,“Yazılan qalacaq”, "Ağsu şəhəri orta əsrlərdə" adlı kitabların, ali məktəblər üçün “Azərbaycan tarixi” və “Azərbaycan arxeologiyasının əsasları” dərsliklərinin, Azərbaycan tarixinə və arxeologiyasına dair tədris proqramlarının, habelə 150-dən çox elmi, 500-dən çox elmi-publisistik məqalənin müəllifidir. O, həmçinin ümummilli lider Heydər Əliyevin həyatı, fəaliyyəti və elmi, nəzəri irsinin öyrənilməsi və təbliğinə dair silsilə məqalələrin və Heydər Əliyev irsinin ali məktəblərdə tədrisinə dair proqramın müəllifidir.

Qafar Cəbiyevin uğurları bununla bitmir. Onun elmi axtarışları Vətən tarixini yeni səhifələrlə zənginləşdirir. Son 100 ildə Azərbaycan arxeoloqları arasında ilk dəfə olaraq 44 ədəd qızıl sikkədən ibarət dəfinəni məhz Qafar Cəbiyev aşkarlamış, onları tədqiq etmiş, qorunmaq və nümayiş olunmaq üçün Milli Azərbaycan Tarixi Muzeyinin Xüsusi fonduna təqdim etmişdir.

Professor Qafar Cəbiyevin “Düşüncələr”i həqiqəti, ədaləti özü üçün amal yolu seçən vətənpərvər bir alimin, qələm sahibinin, eyni zamanda, dəyərli bir insanın tale yolunun sənədli-xronikal aynasıdır. Qafar müəllimin özünə seçdiyi “Həqiqət yolu” onun “Düşüncələr”inin də əzəli həqiqətidir.

***Namiq QƏDİMOĞLU,***
***“Xalq qəzeti”***